**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA SƏRHƏD MÜHAFİZƏSİNİN ROLU (1993 -2013-CÜ İLLƏR)

İxtisas: **5507.01"Beynəlxalq münasibətlər tarixi"**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Qərib Azad oğlu Əsgərov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Musa Nizam oğlu Quliyev**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**İsmayıl Məhərrəm oğlu Musa**

tarix üzrə fəlsəfə doktoru
**İradə Xalid qızı Əliyeva**

tarix üzrə fəlsəfə doktoru
**Camal Cuma oğlu Arıxov**

Azərbaycan Respublikaının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix institutu nəzdində fəaliyyət göstərən BED.1.30/1 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor.
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru,dosent
**İlqar Vahid oğluNiftəliyev**

Elmi seminarın sədri: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor.
**Musa Cəfər oğlu Qasımlı**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir qlobal cəmiyyətdə ictimai həyatın bütün sahələri üzrə milli maraqların qorunması və milli təhlükəsizliyin təmin edilməsi beynəlxalq münasibətlərin iştirakçısı kimi hər bir dövlətin başlıca məqsədini təşkil edir. İstənilən dövlətin təhlükəsizliyi ilk növbədə, onun sərhədlərindən başlayır. Bu gün dövlət sərhədlərinin etibarlı mühafizəsini təmin etmədən ölkənin milli təhlükəsizliyinin və milli maraqlarının qorunması qeyri-mümkündür.

Müasir dünyada milli inkişafa və təhlükəsizliyə qarşı yönələn terror fəaliyyəti, qeyri-leqal miqrasiya, qaçaqmalçılıq və s. kimi transsərhəd təhdidlərin geniş miqyas alması sərhəd təhlükəsizliyi məsələsininistər milli, istər regional, istərsə də beynəlxalq təhlükəsizlik baxımından əhəmiyyətini artırmışdır.

Cənubi Qafqazda geosiyasi cəhətdən mürəkkəb coğrafi məkanda yerləşən Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması məqsədilə görülən əsas tədbirlərdən birini məhz dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi və dövlət sərhədləri yaxınlığında əlverişli qüvvələr nisbətinin yaradılması təşkil edir.[1]

Müstəqilliyin ilk illərində yüksək intellektuallığa və peşəkarlığa malik dövlət mexanizminin yaradılması, inkişaf və təhlükəsizlik strategiyasının formalaşması ölkənin qarşısında başlıca vəzifə kimi dayansa da, həmin dövrdə baş verən ictimai-siyasi proseslər, eləcə də müharibə vəziyyəti onun həyata keçirilməsinə imkan vermədi. Milli inkişaf və təhlükəsizlik siyasətinin mahiyyəti, onun əsas istiqamətləri və həyata keçirilmə mexanizmləri ilə bağlı dövlət qurumlarında, eləcə də cəmiyyətdə əsaslandırılmış yanaşma və təsəvvürlərin səthi olması isə mövcud vəziyyəti daha da ağırlaşdırırdı.[2]

---

[1]Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu.//29 iyun 2004-cü ildə qəbul edilmişdir. - Bakı:Qanun. -2004. -9 s

[2]Həsənov, Ə.M.Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti /Ə.M.Həsənov. - Bakı: Letterpress, - 2011.-440 s.

Yalnız, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda hakimiyyətə ikinci dəfə qayıdışından sonra əldə olunmuş müstəqilliyin qorunması və möhkəmləndirilməsi, milli təhlükəsizliyin təmin olunması, həmçinin demokratik dövlət quruculuğu kimi məsələlər prioritet elan edildi. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qısa müddətdəAzərbaycan beynəlxalq münasibətlərdə öz siyasi çəkisi olan bir dövlətə çevrildi.

Hər bir dövlətin stabil inkişafına və dünyadakı imicinə təsir göstərən əsas amillərdən biri ölkənin etibarlı təhlükəsizlik mühitidir. Bu baxımdan Heydər Əliyev ölkənin milli təhlükəsizliyinin, xüsusən də sərhəd təhlükəsizliyinin təmin olunması məsələsinə xüsusi əhəmiyyət verirdi.

Sərhəd təhlükəsizliyinə hər zaman həssaslıqla yanaşan Heydər Əliyev deyirdi: ”Sərhəd hər bir ölkənin müstəqilliyini, suverenliyini təsdiq edən amillərdən biridir.Beynəlxalq hüquq normaları, millətlərarası, dövlətlərarası əlaqələr, hər bir ölkənin suverenliyi, toxunulmazlığı, ərazi bütövlüyü prinsipi-bunların hamısı ölkələrin sərhədləri ilə əlaqədardır. Hər bir ölkənin sərhədinin toxunulmazlığı həm ölkə üçün, həm də beynəlxalq hüquq normaları üçün əsas prinsiplərdən biridir”[3]

Heydər Əliyev tərəfindən sərhəd təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan Respublikasının milli sərhəd strategiyası tam formalaşdı.2002-ci il iyulun 31-də Dövlət Sərhəd Xidmətinin ayrıca bir qurum kimi təsis edilməsi isə bu strategiyanın uöurla həyata keçirilməsinə əlverişli şərait yaratdı.

2003-cü ildə İlham Əliyevin prezident seçilməsindən sonra əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli sərhəd strategiyası öz inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. əhatə edən ilk on ili ərzində həyata keçirilən siyasət nəticəsində dövlət sərhədlərinin təhlükəsizliyinə demək olar ki, tam nail olundu.

Azərbaycan regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında da əsas iştirakçılardan birinə çevrildi.Ancaq, Cənubi

---

[3]Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar: [46 clddə]/H.Əliyev. bur. məsul akademik R.Ə.Mehdiyev.- Bakı: Azərnəşr,- c.14,- 2005,- 520s.

Qafqaz uğrunda regional maraqların kəskin səviyyəsi, həll olunmamış regional münaqişələrin mövcudluğu, xüsusən də Ermənistanın işğalçılıq siyasəti, təbii ehtiyatlarnan zəngin olan Xəzərin hüquqi statusunun tam müəyyən olunmaması tədqiqat dövründə Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinə əsas təhdidlər kompleksi kimi qalmaqda idi.

Mövcud şərait həyata keçirilən sərhəd siyasətinin qazanılmış təcrübəəsasında elmi araşdırılmasını,gələcək inkişaf istiqamətlərinin, eləcə də bu sahədə mövcud beynəlxalq təcrübənin tətbiqi imkanlarının öyrənilməsini tam zəruri edir. Bununla yanaşı müstəqil Azərbaycanın sərhəd mühafizəsi sisteminin inkişaf tarixinin tədqiq olunması mühüm elmi-siyasi və tarixi əhəmiyyət kəsb edir. Məhz bu vəzifələrin icrasının zəruriliyini əsas götürərək, problem tədqiqat obyekti kimi seçilmişdir. Bundan başqa tədqiqatın aktuallığı aşağıda göstərilən bir sıra amillərlə izah olunur:

- Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin ölkənin milli təhlükəsizliyi baxımından sərhəd təhlükəsizliyinin təmin olunmasının vacibliyini özündə əks etdirən konseptual xarakterli çıxışları və bu istiqamətdə verdiyi göstərişlər milli sərhəd siyasətinin elmi-metodoloji əsaslarla öyrənilməsi məsələlərini daha da aktuallaşdırır;

-Cənubi Qafqaz regionunda mövcud geosiyasi vəziyyət, regionda müxtəlif maraqların kəskin səviyyəsi, xüsusən də qeyri-region ölkələrinin bu işdə fəallıq göstərmələri Azərbaycanın sərhəd təhlükəsizliynin milli təhlükəsizlik baxımından araşdırılmasını və müxtəlif elmi-nəzəri təhlillərin aparılmasını zəruri edir;

-qloballaşma prosesləri və dünya dövlətlərinin inteqrasiyası ilə əlaqədar dövlət sərhədlərinin effektiv mühafizəsi beynəlxalq və regional təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq münasibətlərin iştirakçısı kimi Cənubi Qafqaz ölkələrinin təhlükəsizliyinə bu gün təsir göstərən əsas amillərdən biri də regionda mövcud olan hərbi münaqişələrvə bu münaqişələr nəticəsində yaranmış ”nəzarətsiz” ərazilərlə bağlıdır. Bu baxımdan milli sərhəd siyasətinin regional təhlükəsizliklə əlaqəliöyrənilməsi, habelə mövcud münaqişələrin milli sərhədlərlə yanaşı regional təhlüksizliyə təsiri imkanlarınınaraşdırılmasını zəruri

edir. Bu amilin özü tədqiqat məqsədilə seçilmiş mövzunun aktuallığını daha da artırır;

- son dövrlər özünün təhlükəli xarakteri ilə seçilən beynəlxalq terrorçuluq, qeyri-leqal miqrasiya, insan alveri, kütləvi qırğın silahlarının yayılması kimi transsərhəd təhdidlərinin geniş miqyas alması sərhəd təhlükəsizliyi siyasətinin ayrıca bir strategiya kimi formalaşmasını zəruri edir. Beynəlxalq münasibətlərin bir subyekti kimi Azərbaycanın bu proseslərdən kənarda qalmasının qeyri-mümkünlüyünü əsas götürərək, həyata keçirilən milli sərhəd siyasətinin ayrıca bir konsepsiya formasında hazırlanması imkanlarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir;

-müasir dövrdə dövlət sərhədlərin şəffaflaşması ilə mal dövriyyəsi, texnologiya və informasiya innovasiyalarının transmilliləşməsi getdikcə dövlətlərin öz geoməkanlarını qorumaq işini çətinləşdirmişdir. Əsas məqsədi gəlir götürmək olan ayrı-ayrı transmilli şirkətlər ölkələrin təbii sərvətlərini və sağlam ekoloji mühitini istismar edir, onların balanslı inkişafını pozaraq xammal mənbəyinə çevirir və əhalini gələcək iqtisadi, sosial, ekoloji və başqa geosiyasi, geostrateji və geoiqtisadi təhlükələrlə üz-üzə qoyur. Belə vəziyyət təbii ehtiyatlarla zəngin Azərbaycanın sərhəd təhlükəsizliyinin təmin olunmasında yeni yanaşmaların və beynəlxalq təcrübənin tətbiqi imkanlarınınelmi araşdırılması məsələsini daha da aktuallaşdırır;

-son dövrlər Azərbaycanda sərhəd fəaliyyətinin geniş tədqiq olunmasını aktuallaşdıran əsas amillərdən biri də ölkənin malik olduğu neft və qaz yataqlarının istismarı ilə əlaqədar həyata keçirilən müxtəlif layihələrin, həmçinin regional əhəmiyyətli müxtəlif nəqliyyat layihələrin həyata keçirilməsi və onların təhlükəsizliyinin təmin olunmasıdır;

-dünya dövlətləri arasında inteqrasiya meyllərinin dərinləşməsi və dövlət sərhədlərinin şəffaflaşması tədricən milli adət-ənənələrin,mənəvi dəyərlərin itirilməsinə və milli varlığın bilavasitə təhlükə qarşısında qalmasına səbəb olmuşdur. Bu baxımdan müxtəlif dinlərə, adət-ənənələrə malik olan xalqların və etnik qrupların birgə yaşadığı Azərbaycan Respublikasında sərhəd siyasətinin yerli xüsusiyyətlərə uyğun həyata keçirilməsinin və həmsərhəd dövlətlərin

təhlil edilməsi əsasında tədricən differensial sərhəd mühafizəsi sisteminin tətbiqi imkanlarının araşdırılması mühüm elmi əhəmiyyət kəsb edir;

Milli təhlükəsizlik və sərhəd təhlükəsizliyi məsələləri, Azərbaycanın milli təhlükəsizlik strategiyası və bu strategiyanın tərkib hissəsi kimi sərhəd təhlükəsizliyinin təmin olunmasına dair yerli və xarici tədqiqatçılar tərəfindən müxtəlif elmi əsərlər yazılmışdır.

Siyasi fikir tarixinə nəzər salsaq, görərik ki, təhlükəsizlik məsələləri qədim dövrlərdən bu günədək daim diqqət mərkəzində olmuşdur. Xüsusən də, Konfutsi, Platon, Aristotel, T.Kompanelli, T.Hobbs kimi tanınmış filosoflar öz əsərlərində təhlükəsizlik məsələləri ilə bağlı maraqlı fikirlər bildiriblər. Son dövrlər təhlükəsizlik problemi daha çox qərb ölkələrində, xüsusən də ABŞ-da geniş tədqiq edilmiş və bu istiqamətdə müxtəlif elmi araşdırmalar həyata keçirilmişdir. Bu baxımdan Z.Bjezinski, H.Kissencer, E.Qoldman, A.Smit, C.Lokk, H.Morgentau, B.Büzen, U.Lippman və digər tədqiqatçıların milli təhlükəsizliyin aspektləri, milli maraqlar və s. bu kimi məsələlərlə bağlı tədqiqat işlərini xüsusi vurğulamaq lazımdır.

Rus tədqiqatçılarından isə S.V.Qolunov, V.N.Qubçenko, V.A.Dmitriyev, A.V.Kulakov, A.A.Nekrasov, Y.V.Tixonravrov kimi tanınmış tədqiqatçılar öz əsərlərində milli təhlükəsizlik siyasəti, sərhəd təhlükəsizliyinin təmin olunması, sərhəd təhdidləri və onların qiymətləndirilməsi məsələlərini geniş tədqiq ediblər.

1990-cı illərin əvvəllərindən etibarən Azərbaycan elminə daxil olan milli təhlükəsizlik, milli mənafe və milli maraqlar kimi kateqoriyalar tədricən tədqiqat obyekti kimi öyrənilməyə başlanıldı. Müstəqil Azərbaycanda ictimai-siyasi və humanitar elmlərin, o cümlədən milli təhlükəsizliyin nəzəri-praktiki problemləri daha çox R.Mehdiyev, Ə.Həsənov, Ə.Abdullayev, S.Qəndilov, N.Nəsibzadə, C.Xəlilov, A.Piriyev, A.Güləliyeva, Ə.Tağıyev və başqa müəlliflərin əsərlərində müxtəlif aspektlərdən öyrənilmiş, bu istiqamətdə elmi maraq doğuran konsepsiya və təkliflər irəli sürülmüşdür.

Azərbaycanın dövlət sərhədlərinin formalaşması və tarixi sərhədləri ilə bağlı AMEA-nın A.A.Bakıxanov adına Tarix

İnstitutunun həyata keçirdiyi tədqiqat işləri, ö cümlədən tarixçi alimlər P.Darabadinin, M.Süleymanovun, F.Əhmədovanın,L.Şüküroğlunun və A.Qurbaninin bu sahədəki elmi araşdırmaları xüsusi vurğulanmalıdır.

Bu əsərlərdə Azərbaycanın milli təhlükəzlik siyasəti və onun əsas istiqamətləri, eləcə də sərhəd təhlükəsizliyi və sərhəd təhlükəsizliyinə təhdidlər, həmsərhəd dövlətlərlə sərhəd fəaliyyəti sahəsində münasibətlər geniş təhlil olunmuş, dünyanın və regionun geosiyasi güc mərkəzləri ilə təhlükəsizlik sahəsində qarşılıqlı münasibətlərədair fundamental elmi baxışlar ortaya qoyulmuşdur.

Müstəqil Azərbaycanın milli təhlükəsizliyi ilə bağlı məsələlər müxtəlif tədqiqatçılar tərəfindən araşdırılsa da, milli təhlükəsizliyin təmin olunmasında sərhəd mühafizəsinin əhəmiyyəti və müstəqil Azərbaycanın milli sərhəd siyasətinin regional və milli təhlükəsizlik məsələləri ilə əlaqəli öyrənilməsi ayrıca tədqiqat obyekti kimi öyrənilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.**Tədqiqat işinin əsas obyektini dövlət sərhədləri və dövlət sərhədlərinin təhlükəsizliyi ilə bağlı məsələlər, Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinə təhdidlərin müəyyən edilməsi, həmin təhdidlərin dövlətin milli təhlükəsizliyinə təsirinin öyrənilməsi təşkil edir. Tədqiqat işinin predmetini isə Azərbaycanın milli təhlükəsizliynin təmin olunmasında sərhəd mühafizəsinin əhəmiyyətinin araşdırılması, milli sərhəd siyasətinin formalaşmasında dahi öndər Heydər Əliyevin rolunun və Prezident İlham Əliyev tərəfindən həyata keçirilən yeni sərhəd siyasətinin öyrənilməsi, habelə beynəlxalq münasibətlərin aktiv bir iştirakçısı kimi Azərbaycanın dövlət sərhəd təhlükəsizliyinin regional təhlükəsizlik baxımından əhəmiyyətinin elmi araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi müstəqil Azərbaycanın sərhəd mühafizə sisteminin və sərhəd təhlükəsizliyi siyasətinin müxtəlif tarixi dövrlərdə milli təhlükəsizlik baxımından araşdırılması, milli sərhəd siyasətinin formalaşmasında Heydər Əliyev şəxsiyyətinin rolunun elmi əsaslarla öyrənilməsi, habelə həyata keçirilən sərhəd təhlükəsizliyi siyasətinin ölkənin milli təhlükəsizliyinə, o cümlədən regional təhlükəsizliyə

təsir dərəcəsini müəyyən edilməsi təşkil edir. Həmin məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

-Ümummilli lider Heydər Əliyevin milli sərhəd siyasətinin formalaşmasında rolunun elmi araşdırılması;

-2003-2013-cü illərdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sərhəd təhlükəsizliyi siyasətinin əsas istiqamətlərinin ölkənin və regionun təhlükəsizliyi baxımından tədqiq edilməsi;

-qloballaşma dövründə milli təhlükəsizlik məsələləri, milli təhlükəsizliyin təmin olunmasında sərhəd mühafizəsinin rolunun araşdırılması;

-müasir sərhəd təhdidlərinin, xüsusən də transsərhəd təhdidlərinin milli və regional təhlükəsizlik baxımından öyrənilməsi;

-Müstəqil Azərbaycanın müxtəlif tarixi dövrlərdə həyata keçirdiyi sərhəd siyasətinin milli təhlükəsizlik baxımından elmi araşdırılması;

-Azərbaycanın dövlət sərhədlərinin hərbi və geostrateji qiymətləndirilməsi,real və potensial sərhəd təhdidlərinin müəyyən edilməsi;

-Azərbaycanın dövlət sərhəd təhlükəsizliyinin regional təhlükəsizlik baxımından araşdırılması;

-Ermənistan tərəfindən həyata keçirilən işğalçılıq siyasətinin Azərbaycanın dövlət sərhəd təhlükəsizliyinətəsirinin öyrənilməsi;

-Azərbaycan Respublikasının dəniz sərhədlərinin təhlükəsizliyi məsələsinin neft-qaz və nəqliyyat layihələrinin təhlükəsizliyi, eləcə dəölkənin və regionun təhlükəsizliyi baxımından öyrənilməsi;

**Tədqiqat metodları.**Dissertasiyanın əsas vəzifələrinin yerinə yetirilməsində bir sıra nəzəri metodlardan istifadə olunmuşdur. Tədqiqatın metodoloji əsasını məntiqi, müqayisəli, dialektik, tarixi və sistemli analiz metodları təşkil edir. Tədqiqat işini daha səmərəli təşkil etmək məqsədilə müxtəlif sosial qrupların iştirakı ilə sərhədboyu rayonlarda anket sorğular təşkil olunmuşdur. Həmin sorğuların nəticələri yekunda riyazi-statistik hesablamalarla təhlil olunmuş və qrafik və sxemlər şəklində dissertasiya işində öz əksini tapmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar;**

- Azərbaycan Respublikasının dövlət sərhəd siyasətinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.
- Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sərhəd təhlükəsizliyi siyasəti ölkənin və regionun stabil və dayanıqlı inkişafına böyük təsir göstərmişdir.
- Azərbaycan Respublikasının dövlət sərhəd təhlükəsizliyinin təmin olunması ölkənin milli təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb.
- Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinin regional təhlükəsizliyə təsiri böyükdür.
- Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı mühafizəsi üçün Sərhəd Təhlükəsizliyi Konsepsiyasının hazırlanması zəruri əhəmiyyət kəsb edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada mövcud tədqiqatlardan fərqli olaraq Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinin milli təhlükəsizlik baxımından əhəmiyyəti,tədqiqatın əhatə etdiyi xronoloji çərçivədə müstəqil Azərbaycanın sərhəd təhlükəsizliyinin regional təhlükəsizliyə təsiri, ölkənin sərhəd təhlükəsizliyinə təhdidlər, sərhəd fəaliyyətinin kompleks şəkildə həyata keçirilməsinin zəruriliyi dissertasiya səviyyəsində əsaslandırılmışdır.

Bununla yanaşı bu işdə:

- milli sərhəd strategiyasının formalaşmasında Heydər Əliyevin xidmətləri, eləcə də Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasətin əsas istiqamətləridissertasiya səviyyəsində ilk dəfə tədqiq edilmişdir.
- Azərbaycanın sərhəd təhlükəsizliyinin milli və regional təhlükəsizlik baxımından əhəmiyyəti tədqiq olunmuşdur.
- Azərbaycan Respublikasının dövlət sərhədlərinə təhdidlər təhlil edilmiş, həmsərhəd dövlətlər sərhəd təhlükəsizliyi baxımındanaraşdırılmışdır.
- Ermənistanın işğalçılıq siyasətiAzərbaycanın dövlət sərhəd təhlükəsizliyinə ən böyük təhdid kimi tədqiqata cəlb olunmuşdur.

- həyata keçirilən milli sərhəd siyasətinin ayrıca bir konsepsiya şəklindəformalaşmasının zəruriliyi elmi əsaslandırılmışdır.
- Azərbaycanın sərhəd təhlükəsizliyinin səmərəli təşkili üçün müxtəlif sərhəd mühafizə modelləri irəli sürülmüşdür.
- sərhəd təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə həmsərhəd dövlətlərlə, eləcə də beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığınınkişaf etdirilməsi, sərhəd fəaliyyəti sahəsində qanunvericilik sisteminin təkmilləşdirilməsi elmi cəhətdən əsaslandırılmışdır.

Tədqiqat işində müxtəlif araşdırmalar, sorğu və anketlər aparılmış, sərhəd mühafizə sisteminin daha mükəmməl təşkil olunması məqsədilə bir sıra təkliflər göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**Tədqiqat işindən çıxarılan nəzəri müddəalar və təkliflər istər nəzəri, istər praktiki baxımdan mühüm əhəmiyyətə malikdir. Belə ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan milli sərhəd strategiyasının elmi araşdırılması ilk növbədə bu strategiyanın gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.Tədqiqat işindən gələcək elmi araşdırmalarda nəzəri mənbə kimi istifadə etmək mümkündür, o cümlədənbu sahədə müxtəlif mühazirə və monoqrafiyaların hazırlanması məqsədilə istifadə oluna bilər.

Praktiki baxımdan əldə olunmuş nəticələr ali hərbi məktəblərdə, xüsusən də Dövlət Sərhəd Xidməti Akademiyasında təhsil alan kursantlar və dinləyicilər, eləcə də milli təhlükəsizlik və beynəlxalq münasibətlərsahələri üzrə təhsil alan tələbələr və bu sahədə elmi araşdırmalar aparan tədqiqatçılar üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəzəri müddəaları və praktiki təklifləri Azərbaycan Respublikasının Prezidenti yanında AAK-nın siyahısında olan, o cümlədən xarici elmi nəşrlərdə və müxtəlif elmi-praktiki konfransların tezislərində öz əksini tapmışdır. Dissertasiya işinin mövzusu ilə əlaqədar ümumilikdə 24, o cümlədən 13 yerli və beynəlxalq əhəmiyyətli konfrans materialı və AAK-nın müəyyən etdiyi elmi nəşrlərdə 11 elmi məqalə çap olunmuşdur.

Əldə olunan nəticələrdən sərhəd fəaliyyəti sahəsində yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi, gələcəkdə Azərbaycan Respublikasının Sərhəd Təhlükəsizliyi Konsepsiyasının hazırlanması prosesində və Sərhədşünaslıq (Sərhəd Menecmenti) elminin Azərbaycanda formalaşması üçün istifadə oluna bilər. Bununla yanaşı tədqiqat işinin nəticələri "Sərhəd təhlükəsizliynin müasir problemləri", "Milli təhlükəsizlik və onun təmin olunması", "Sərhəd təhlükəsizliyinin əsasları" fənlərinin tədrisi prosesində istifadə oluna bilər.

**Dissetasiya işinin yerinə yetirildiyi təşkilatın adı;** Dissertasiya işi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasında yerinə yetirilmişdir.

**Dissetasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi;** Dissertasiya işi (ədəbiyyat sıyahısı, cədvəllər, qrafiklər istisna olmaqla) "Giriş" hissəsi 25178, I Fəsil 58460, II Fəsil 57454, III Fəsil 65609, "Nəticə" hissəsi isə 14441 işarədən olmaqla, ümumilikdə 221152 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın “**Giriş**”hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi və mənbə bazası təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, işin elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın birinci fəsli **”Milli təhlükəsizlik və sərhəd təhlükəsizliyi siyasəti”** adlanır. Bu fəslin **“Milli təhlükəsizlik və onun təmin olunması sahələri”** adlanan birinci yarımfəslində milli təhlükəsizlik anlayışı və onun mahiyyəti, eləcə də milli təhlükəsizlik sisteminin əsas kateqoriyalarından olan milli maraq, təhdid, təhlükə, milli təhlükəsizlik siyasəti kimi anlayışlar araşdırılmışdır. Bu yarımfəsildə xüsusilə göstərilir ki, milli təhlükəsizliyin təmin olunması ölkənin hərtərəfli inkişafına şərait yaradır.Beynəlxalq siyasətin nüvəsi kimi qiymətləndirilən milli maraqların dəqiq müəyyən edilməsi müasir dövrdə istənilən cəmiyyətin və dövlətin gələcək inkişafı mühüm əhəmiyyət kəsb edir.[4]

I fəslin **“Sərhəd təhlükəsizliyi və milli təhlükəsizlik sistemində onun yeri”** adlanan ikinci yarımfəslində qeyd edilir ki, sərhəd hər bir dövlətin ərazisini qonşu dövlətdən ayıran xətt olub onun fəaliyyət dairəsinin və suverenliyinin həddini müəyyənləşdirir. Sərhəd, ərazi bütövlüyü hər bir ölkənin müstəqilliyinin əsasını təşkil edən atributlardır.[5]Bu baxımdan bu yarımfəsildə milli təhlükəsizliyin təmin olunmasında sərhəd mühafizəsinin rolu əsaslandırılmışdır. Müasir dövrdə dövlət sərhədlərinin təhlükəsizliyi istənilən ölkənin milli təhlükəsizlik siyasətinin tərkib hissəsi olmaqla, onun xarici təhlükəsizliyinin, ərazi bütövlüyünün və siyasi müstəqilliyinin təmin edilməsinin əsas şərtlərindən biridir.

I fəslin**“Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin formalaşmasında sərhəd mühafizəsi məsələləri”** adlanan üçüncü yarımfəsildəqeyd edilir ki, dövlət müstəqilliyini əldə etdikdən sonra onun qorunması və möhkəmləndirilməsi, ictimai

---

[4] Бжезинский, З. Выбор: мировое господство или глобальное лидерство. /З.Бжезинский.-Москва:Международныеотношения.- 2007. -288 с.

[5] Qurbani, A. Müqəddəs sərhədlərimizin keşiyində./A.Qurbanı..- Bakı: Əbilov, Zeynalov və oğulları, - 2002, -352 s.

həyatın bütün sahələri üzrə təhlükəsizliyin və sərhədtoxunulmazlığının, o cümlədən regionda baş verən əksərgeosiyasivə geoiqtisadi proseslərdə fəal iştirak etməklə milli maraqların təminedilməsi Azərbaycanın Respublikasının qarşısında dayanan əsas vəzifələrdən biri oldu.

1993-cu ilin ikinci yarısından etibarən milli özünüdərk, milli maraqlar kimi anlayışların mahiyyətinin dərk olunması tədricən ölkənin milli mənafe konsepsiyasının işlənib hazırlanmasını zəruri edirdi.[6.] Məhz bu zərurətdən irəli gələrək hakimiyyətə gələn Heydər Əliyev qısa müddət ərzində bütün mövcud resursları və mexanizmləri konkret müəyyənləşdirdi, dövlət müstəqilliyinin qorunması və onun təhlükəsizliyinin təmin olunması istiqamətində konkret addımlar atdı.

2003-cü ildə İlham Əliyevin hakimiyyətə gəlməsindən sonra həyata keçirilən dövlət siyasəti sayəsində Azərbaycan dayanıqlı iqtisadiyyata, güclü orduya malik, özünü tam təmin edən, mövqeyinə və rəyinə regionda və dünyada hörmətlə yanaşılan və milli maraqlara əsaslanaraq tam müstəqil siyasət yürüdən ölkəyə çevrildi.Milli təhlükəsizliyin təmin edilməsi üçün geniş hüquqi baza yaradıldı.Sərhəd təhlükəsizliynin təmin olunması milli təhlükəsizlik baxımından prioritet məsələ kimi ölkənin Milli Təhlükəsizlik Konsepsiyasında öz əksini tapdı.Azərbaycanın beynəlxalq münasibətlərdə həyata keçirdiyi aktiv siyasi fəaliyyət onun beynəlxalq və regional təhlükəsizliyin təmin olunması sahəsində fəaliyyət imkanlarını daha da genişləndirdi.[7]

**“Azərbaycan Respublikasının sərhəd mühafizəsi sisteminin formalaşması”**adlanan dissertasiyanın ikinci fəslinin **“Sərhəd mühafizəsi Azərbaycanın dövlət müstəqilliyinin bərpasına qədərki dövrdə”**adlanan birinci yarımfəslində qeyd edilir ki, ölkənin coğrafi mövqeyi və müəyyən dövrlərdə ictimai-siyasi vəziyyəti, yerləşdiyi regionda baş verən siyasi dəyişikliklər,habelə tarixin müxtəlif dövrlərində onun ərazisində mövcud olan

[6]Həsənov, Ə.M.Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. / Ə.M.Həsənov.- Bakı: Azərbaycan. - 2005. -631 s.
[7]Əhmədov,E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq instutları ilə münasibətlər./ E.Əhmədov. - Bakı: Litterpress, – 2013, -452 s.

dövlətlərin digər dövlətlərlə münaqişə və müharibələrə cəlb olunması tarixi torpaqların böyük bir qisminin itirilməsinə səbəb olmuşdur.

II fəslin I yarımfəslində Azərbaycanın qədim dövlətçilik tarixinə nəzər salınmış, tarixi Azərbaycan dövlətlərində sərhəd məsələlərinin öyrənilməsinə xüsusi yanaşılmışdır.Göstərilir ki, dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan ərazisində mövcud olmuş bütün tarixi dövlətlər sərhəd təhlükəsizliyinə xüsusi önəm vermişdir.

Cənubi Qafqazın şərq, İranın şimal-qərb hissələrini əhatə edən Manna, Atropotena və Albaniya kimi qədim Azərbaycan dövlətləri sərhəd toxunulmazlığı və əraziləri uğrunda daim işğalçı dövlətlərlə müharibələr aparmışdır.

Tarixi mənbələrin verdiyi məlumata görə Sasanilər imperiyası və Ərəb Xilafəti dövründə Azərbaycan ərazisinin qərb və şimal sərhədləri hər iki imperiyanın əsgərləri tərəfindən mühafizə olunurdu. Hətta, Dərbənd şəhərində şimaldan ola biləcək təhlükələrdən qorunmaq üçün bir neçə sədd tikilmişdir.

IX-X əsrlərdə mövcud olmuş Azərbaycan feodal dövlətlərinin hərbi-siyasi cəhətdən zəif olması sərhəd təhlükəsizliyi məsələsinin təşkilinə mənfi təsir göstərmişdir. XI əsrdə mövcud olmuş Səlcuq imperiyasıdövründə hətta, dövlət sərhədlərinin mühafizəsi üçün hərbi xidmət müqabilində uc torpaqları adlanan, şərti olaraq verilən pay torpağı sistemi yaradıldı.

XV əsrdə Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri öz sərhədlərini qorumaq üçün şərti torpaq sahibliyi olan soyurqalı hərbi xidmət müqabilində hərbiçilərə ayırmışdır. XVI əsrin birinci yarısındayaranan və Azərbaycan torpaqlarını vahid şəkildə birləşdirən Səfəvilər dövründə isə dövlət sərhədlərinin mühafizəsinə cəlb olunan hərbi qulluqçulara soyurqal pay torpağı verilirdi.[8]

XVIII əsrdə Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən Osmanlı dövləti Cənubi Qafqazda bir sıra əraziləri ələ keçirmişdir. Bu dövrdə Nadir şahın qarşısında dayanan əsas vəzifələrdən biri Osmanlı qoşunlarını Səfəvilər dövlətinin sərhədlərindən

[8] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. / Red.hey.sədri Y.Mahmudov.-Bakı: Lider nəşriyyat, -c.1. - 2004.-440 s.

kənarlaşdırmaq oldu. Məhz onun əzmkarlığı nəticəsində qısa müddətərzində Səfəvi dövlətinin cənub-qərb sərhədləri bərpa edildi və dövlətin malik olduğu nüfuzu özünə qaytarıldı.

XVIII əsrdə Azərbaycan ərazilərində bir-biriləri ilə rəqabət aparan xanlıqların yaranması və onlar arasındakı gərgin münasibətlərdən istifadə edən Çar Rusiyası və Qacarlar dövləti Gülüstan və Türkmənçay sülh müqavilələri ilə Azərbaycanın tarixi əraziləri iki yerə bölündü, Araz çayı şimal hissəni cənubundan ayıran sərhəd rolunu oynadı.

1918-ci il mayın 28-də Araz çayından şimalda olan ərazilərdə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması yenidən dövlət sərhədləri və sərhədlərin təhlükəsizliyi məsələlərini aktuallaşdırdı.

Ancaq, ümumi ərazisi 113,895,97 km$^2$ olan Azərbaycan Xalq Cümhuriyyətinin 16,598,30 km$^2$ ərazisinin mübahisəli olması onun təhlükəsizliyinin əsas təyinedici amilini təşkil etdi.[9]

XX əsrdə ikinci dəfə öz müstəqilliyini 1991-ci il oktyabrın18-də bərpa edən və ümumi ərazisi 86.6 min km$^2$ olan AzərbaycanRespublikasının dövlət sərhədlərinin 2647 kilometrini quru sərhədləri, 713 kilometrii isə dəniz sərhədləri təşkil etdi.




Şək.2.1Azərbaycanın sərhədboyu rayonları

[9]Azərbaycan Respublikası ərazisinin kvadrat vers və kvadrat kilometrlərlə göstəriciləri. (Gəncə: 30 iyun 1918-ci il il) //Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 970, siyahı №1, iş № 233, vərəq- 37.

**"Azərbaycan Respublikasının sərhəd mühafizəsi sisteminin təşəkkülü (1991-1993)"**adlanan ikinci yarımfəsildə qeyd edilir ki, bu dövrdə sərhədboyu ərazilərdə lazımı infrastrukturun olmaması, SSR-nin dağılmasından sonra neft-qaz resursları ilə zəngin olan Xəzərin hüquqi statusu ilə bağlı məsələnin yeni mərhələyə keçməsi, maliyyə problemləri, peşəkar sərhədçi kadrların azlığı, xüsusən də sərhədlərin böyük bir hissəsinin işğal nəticəsində nəzarətdən kənar qalması kimi amillər dövlət sərhədlərinə nəzarəti qeyri-mümkün etmişdir.

Mövcud şərait müxtəlif transmilli kriminal qrupların və silahlı şəxslərin yaranmış vəziyyətdən yararlanmasına əlverişli imkan yaradırdı. Belə şəraitdən, xüsusən də müharibə vəziyyətindən istifadə edən transmilli cinayətkar qruplar bəzi dövlətlərin himayəsi altındaöz maraqlarını təmin etməklə yanaşı ölkənin və regionun təhlükəsizliyinə birbaşa təhdid yaradırdı.

**"Heydər Əliyev və Azərbaycanın milli sərhəd strategiyasının formalaşması (1993-2003)"**adlanan üçüncü yarımfəsildə qeyd edilir ki,1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindənbirini də dövlət sərhədlərinin mühafizəsi ilə birbaşa məşğul olan sərhəd mühafizə orqanlarının formalaşdırılması təşkil edirdi.Heydər Əliyev deyirdi: "Sərhəd Qoşunlarının möhkəmlənməsi müstəqilliyimizin möhkəmlənməsi deməkdir... Azərbaycanın hərtərəfli inkişafı üçün, Azərbaycanda sülhün, sabitliyin, təhlükəsizliyin daha da möhkəmlənməsi üçün sərhəd nəzarəti ən yüksək səviyyədə olmalıdır".[10]

2002-ci il iyulun 31-də ayrıca bir qurum kimi Dövlət Sərhəd Xidmətinin yaradılması haqqında fərman imzalandı.[11] Bu fərman sərhəd mühafizəsi tarixindəkeyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu və bununla da Azərbaycanın milli sərhəd strategiyasının əsası qoyuldu.Tarixi ənənələri bərpa etmək məqsədi ilə 2000-ci il avqustun 16-da Azərbaycan Xalq Cümhuriyyətinin ilksərhəd mühafizəsinintəsis edildiyi günü-18 avqust tarixiniSərhəd

---

[10]Azərbaycan sərhəd mühafizəsi-90 il. Bakı: Şərq-Qərb, 2009. 444 s

[11] Dövlət Sərhəd Xidmətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2002 –ci il 31 iyul tarixli Fərmanı

Qoşunlarıəməkdaşlarının peşə bayramı günü kimi qeyd olunması haqqında sərəncam imzalandı.[12]

1993-2003-cü illər ərzində həyata keçirilən sərhəd siyasəti nəticəsində sərhədboyu ərazilərdə sərhəd infrastrukturları bərpa edildi, yeni sərhəd zastavaları yaradıldı, maddi-texniki baza yeniləndi. Bu dövrdə Xudat, Zaqatala və Şəmkir Sərhəd Dəstələrinin yaradılması dövlət sərhədlərində sərhəd fəaliyyətinin təşkili prosesində böyük keyfiyyət dəyişikliyi yaratdı.Həmsərhəd dövlətlərlə sərhədlərin delimitasiyası və Xəzərin hüquqi statusu ilə bağlı danışıqlar sürətləndi.

Beynəlxalq sərhəd təşkilatları və digər dövlətlərlə sərhəd fəaliyyəti sahəsində ikitərəfli əməkdaşlıq əlaqələri quruldu, sərhədçi zabitlər müxtəlif beynəlxalq təlimlərə cəlb olundu.Ermənistan istisna olmaqla, bütün həmsərhəd dövlətlərlə sərhəd fəaliyyəti sahəsində əməkdaşlıq əlaqələri yaradıldı və təcrübə mübadiləsi üçün birgə seminarlar təşkil olundu.

**“Sərhəd təhlükəsizliyi siyasətinin inkişafında yeni mərhələ (2003-2013)”**adlanandördüncü yarımfəsildə qeyd edilir ki,əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın milli sərhəd strategiyası 2003-cü ildən etibarənPrezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində yeni mərhələyə-inkişaf mərhələsinə başladı.

Prezident İlham Əliyev deyirdi:”Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır. Xüsusilə Azərbaycan kimi daxili sabitliyi ilə fərqlənən ölkələrin təhlükəsizliyi, ilk növbədə sərhədlərin möhkəm olmasından asılıdır.”[13]

Dövlət sərhədlərinin təhlükəsizliyi və onun regional təhlükəsizliyin təmin olunmasında rolunu nəzərən alaraq bir sıra konkret addımlar atıldı. 2003-2013-cü illər ərzində Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sərhəd siyasəti nəticəsində bir sıra yeni sərhəd zastavaları açıldı, mövcud infrastruktur yeniləndi, sərhədmühafizəsinin təşkilində müasir texniki vasitələrdən istifadənin miqyası daha da genişləndirildi.

---

[12][12].www.dsx.gov.az/arxiv_xeber/22

[13]Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti.Bakı: Şərq-Qərb, 2007. 176 s.

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin texniki inkişafına dair Dövlət Proqramı təsdiq olundu. Dövlət Sərhəd Xidmətini peşəkar kadr heyəti ilə təmin edilməsi məqsədilə Dövlət Sərhəd Xidmətinin Akademiyasının yaradılması haqqında sərəncam imzaladı.[14]

Müxtəlif beynəlxalq təşkilatlarla, xüsusən də sərhəd təhlükəsizliyi sahəsində NATO, Avropa İttifaqı, BeynəlxalqMiqrasiya Təşkilatı, Avropanın xarici sərhədlərinin idarəolunmasıməqsədilə yaradılmış beynəlxalq sərhəd təşkilatları ilə ikitərəfli və çoxtərəfli əlaqələri daha da genişləndirildi.[15]

**“Sərhəd təhlükəsizliyinin Azərbaycan Respublikasının milli təhlükəsizlik sistemində yeri”** adlanan üçüncü fəslin **“Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyi və onun təmin olunması”** adlanan birinci yarımfəslindəqeyd edilir ki, beynəlxalq münasibətlərin bir subyekti olan Azərbaycan Respublikasının dövlət sərhəd məkanında təhlükəsizlik mühitinin təşkili onun milli təhlükəsizlik sisteminin əsas tərkib hissələrindən biridir. Azərbaycanın dövlət sərhədlərinin mühafizəsi onun milli təhlükəsizliyin əsas təyinedici amillərindən biridir.Bu hisədə Azərbaycanın sərhəd məkanında milli maraqları göstərilmiş və ayrı-ayrılıqda təhsil olunmuşdur.

Qeyd olunur ki, həmsərhəd dövlət olan Ermənistanın təcavüzkarlıq siyasətinin davam etməsi, ölkənin geosiyasi mövqeyi və tranzit əhəmiyyəti, müxtəlif sivilizasiyaların qovşağında yerləşməsi, həmsərhəd dövlətlərdə mövcud olan geosiyasi və hərbi vəziyyət, regional siyasi-iqtisadi vəziyyət və münaqişələrlə bağlı miqrasiya axınlarının genişlənməsi kimi amillər təbii ehtiyatlarla zəngin olan Azərbaycanın dövlət sərhədlərinin təhlükəsizliyinə birbaşa təsir göstərir.

---

[14]Azeri defence hərbi texnoloji jurnal. İyul-Avqust.2016. .№ 04(24) Təhsil NP42
[15]www.dsx.gov.az/beynelxalq _elaqe#




Qrafik .3.1.Sərhəd pozucularının milli tərkibi:

Aparılan təhlillər əsasında müəyyən edilmişdir ki, dövlət sərhədlərini pozan sərhəd pozucularının milli tərkibini əsasən Azərbaycan Respublikasının vətəndaşları, Özbəkistan və İran İslam Respublikası vətəndaşları təşkil edir. [16]

Cənubi Qafqazın geosiyasi mərkəzi hesab edilən Azərbaycan yeddi dövlətlə ümumi uzunluğu 3463 kilometrolan quru və su sərhədlərinə malikdir. Bu yarımfəsildə həmsərhəd dövlətlər ayrı-ayrılıqda hərbi və geosiyasi cəhətdən qiymətləndirilmiş, sərhəd pozulma halları rəsmi rəqəmlər əsasında müqayisəlitəhlil edilmişdir ki, bu amil də tədqiqatın nəticəsinə təsir etmişdir.

**“Ermənistan-Azərbaycan münaqişəsinin dövlət sərhədlərinin təhlükəsizliyinə təsiri”** adlanan ikinci yarımfəsildə qeyd edilir ki,1988-ci ildən etibarən aktiv döyüş əməliyyatları ilə müşahidə olunanmünaqişə nəticəsindəFüzuli rayonununHoradiz qəsəbəsindən başlayaraq Zəngilan rayonunun sərhədlərinədək uzanan 198 kilometr

[16]www.dsx.gov.az/arxiv_xeber/20




Şək.3.1. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş və hazırda azad edilən hissələri

Azərbaycan-İran və 360 kilometr Azərbaycan-Ermənistan sərhədləri, bütövlükdə isə 558 kilometr dövlət sərhədləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur.

İşğal olunmuş ərazilərin beynəlxalq nəzarətin hər hansı formasından kənarda qalması həmin ərazilərdə qeyri-leqal fəaliyyətin miqyasının genişlənməsinə, xüsusən də narkotik və psixotrob maddələringeniş şəkildə müvafiq marşrut üzrə daşınmasına münbitşərait yaratmişdir. Bununla yanaşı işğal olunmuş ərazilərdə qeydiyyata alınmayan və nəzarət edilməyən silah-sursat və hərbi texnikanın toplanması, eləcə də qanunsuz silahlı birləşmələr və terrorçular üçün bazaların yaradılması kimi halların mövcudluğu tədqiqatın əhatə etdiyi tarixi dövrdə Azərbaycanın sərhəd təhlükəsizliyinə birbaşa təhdid yaradırdı. İşğal olunmuş ərazilərdə insan alveri, narkotik və psixotrop maddələrin qeyri-qanuni istehsalı və dövriyyəsi baş verir, eləcə də silah ticarəti üzrə tranzit marşrutları formalaşdırılmışdır. Transmilli cinayətlər üçün istifadə edilən bu ərazilərin nəzarətdən kənar qalması Azərbaycanın milli təhlükəsizliyi ilə yanaşı, regional təhlükəsizliyin təmin olunmasına da mənfi təsir göstərirdi.

Mövcud vəziyyətin təhlili göstərir ki, bu münaqişənin həlli istər milli, istərsə də regional təhlükəsizlik baxımından mühüm əhəmiyyətə malikdir.

**"Azərbaycan Respublikasının sərhəd mühafizəsinin regional təhlükəsizliyə təsiri"**adlanan üçünçü yarımfəsildə qeyd edilir ki,Azərbaycanın dövlət sərhədlərində təhlükəsizliyin təmin olunmasının regional təhlükəsizlik baxımından əhəmiyyəti çox böyükdür.Azərbaycanın geosiyasi və geoiqtisadi baxımdan Avrasiyanın giriş qapısı, Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizlərinin kəsişdiyi bir yerdə yerləşməsi, Trans-Asiya nəqliyyat dəhlizində əsas bağlayıcı ölkələrdən biri kimi çıxış etməsi onun malik olduğu dövlət sərhədlərinin etibarlı mühafizə olunmasının regional təhlükəsizlik baxımından əhəmiyyətini daha da artırır.




Şək.3.2. Azərbaycan Respublikasının tranzit əhəmiyyəti

Regional və beynəlxalq yol-nəqliyyat infrastrukturlarının, o cümlədən Xəzər regionunun zəngin karbohidrogen ehtiyatlarının Avropaya nəqli ilə bağlı nəhəng transmilli enerji layihələrinin iştirakçısı olan Azərbaycan regionun enerji təhlükəsizliyinin təmin olunmasında böyük fəallıq göstərir. Ancaq, tədqiqatın xronoloji çərçivəsinin əhatə etdiyi dövrdə Xəzər dənizinin hüquqi statusunun müəyyən olunmaması və bu istiqamətdə sahilyanı dövlətlər arasında mövcud fikir ayrılığı, xüsusən də İran İslam Respublikası və

Türkmənistanla kəsişən maraqlarının ortaq nöqtəsinin tapılmaması, Xəzər regionuna kənar qüvvələrin cəlb olunması kimi məsələlər regionda mövcud vəziyyətin daha da gərginləşməsinə səbəb olmuşdur.

Belə vəziyyət Azərbaycanın dəniz sərhəd təhlükəsizliyinin milli təhlükəsizliklə yanaşı regional təhlükəsizlik baxımından da əhəmiyyətinin artmasına səbəb olmuşdur.

**Nəticə**hissəsində tədqiq olunan problemlə əlaqədar ümumiləşdirmələr aparılmış, müasir dövrdə Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasında sərhəd mühafizəsinin rolu araşdırılmış və elmi nəticələr çıxarılmışdır:

-Azərbaycan Respublikasının milli təhlükəsizliyi baxımından sərhəd təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə Sərhəd Təhlükəsizliyi Konsepsiyasının hazırlanması:

- Azərbaycanın dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası proseslərinin sürətləndirilməsi, dövlət sərhədlərinin dəqiq müəyyənləşdirilməsi ilə bağlı həmsərhəd dövlətlərlə yekun sənədlərin imzalanmasına nail olunması;

- Azərbaycanın sərhəd təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə müvafiq orqanlarla vətəndaşlar arasında informasiya sahəsində əməkdaşlığın inkişaf etdirlməsini nəzərdə tutan hüquqi bazanın yaradılması;

- həmsərhəd dövlətlərin sərhədboyu ərazilərində texniki imkanların paralel şəkildə təkmilləşməsi üçün birgə lahiyələrin təşkil olunması;

- dövlət sərhədlərinin mühafizəsinə differensial yanaşmanın tətbiq edilməsi;

- dövlət sərhədlərinin mühafizəsində kiçik ölçülü pilotsuz uçuş aparatlarının, GPS və naviqasiya sitemlərinin tam tətbiq edilməsi imkanlarına baxılması;

- ərazilərin relyefindən, əməliyyat şəraitindən asılı olaraq adekvat müdaxilənin həyata keçirilməsi məqsədilə tam təchiz olunmuş mobil qrupların təşkil olunması və vahid komanda idarəetmə mərkəzinin yaradılması;

- sərhəd fəaliyyəti ilə bağlı elmi tədqiqat işlərinin genişləndirilməsi, xüsusən də son dövrlər Ali Baş Komandan İlham

Əliyev tərəfindən həyata keçirilən və əsasında ümummilli lider Heydər Əliyev ideyaları dayanan Azərbaycan Respublikasının milli sərhəd strategiyasının daha geniş araşdırılması, Sərhədşünaslıq elminin formalaşması, onun nəzəri bazasının işlənməsi sərhəd fəaliyyətinin gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün mühüm əhəmiyyətə malikdir;

Hazırda Cənubi Qafqaz regionun aparıcı dövləti kimi Azərbaycan region ölkələri ilə, eləcə də qeyri-region ölkələri və beynəlxalq təşkilatıarla sərhəd təhlükəsizliyi sahəsində sıx əməkdaşlıq edir və bir sıra layihələr həyata keçirir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan RespublikasınınSilahlı Qüvvələri tərəfindən Ermənistanın növbəti genişmiqyaslı silahlı təxribatının qarşısının alınması məqsədilə 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində dövlət sərhədlərimiz tam bərpa olundu. Müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycan Respublikasınınİran İslam Respublikası və Ermənistanla olan dövlət sərhədləri tam nəzarətə götürüldü. Münaqişəli vəziyyətin geridə qalmasına baxmayaraq, Ermənistanla da dövlət sərhədlərinin ədalətli və dəqiq müəyyən edilməsi istiqamətində bir sıra problemlər öz mövcudluğunu saxlayır. Buna baxmayaraq, Azərbaycan tərəfi dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası istiqamətində Ermənistanla hər cür əməkdaşlığa hazırdır.Çünki, Azərbaycan nəinki Ermənistan, bütün həmsərhəd dövlətlərlə əməkdaşlığı regionda sülhün və sabitliyin qorunub saxlanılması üçün mühüm amil hesab edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**


1. Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasında sərhəd mühafizəsinin əhəmiyyəti //-Bakı: Bakı Universitetinin Xəbərləri.Sosial-siyasi elmlər seriyası, -2014. .№ 4, - s.70-76
2. Heydər Əliyev və müstəqil Azərbaycanın sərhəd təhlükəsizliyi //-Bakı: "Heydər Əliyev Azərbaycanın milli dövlətçilik siyasətinin banisidir" mövzusunda doktorant və dissertantların elmi konfransının materialları, - 2014.-s.92-101
3. Müstəqil Azərbaycanın sərhəd mühafizəsinin inkişafı tarixi-ən yeni dövr // - Bakı: Pedaqoji Universitet "Xəbərlər".Elmi-nəzəri jurnal, -2015. №4, -s.144-148
4. Azərbaycanın geosiyasi mövqeyi dəniz sərhədlərinin etibarlı mühafizəsini zəruri edir //- Bakı: "Geostrategiya" jurnalı,-2015. № 04 (28), iyul-avqust. - s.61-64
5. Milli təhlükəsizliyin təmin olunmasında nizami ordunun zəruriliyi //-Bakı: "Hərbi Bilik" Hərbi elmi-nəzəri,publisistik jurnal.-2015. №2, -s.97-103
6. Azərbaycan-NATO əlaqələri:milli təhlükəsizlik konteksində //-Naxçıvan:"Elmi Əsərlər", İctimai elmlər seriyası, -2015.№2(67), - s.100-105
7. Azərbaycan sərhəd mühafizəsinin inkişaf tarixi (1993-2003-cü illər) //- Naxçıvan: "Axtarışlar" AMEA Naxçıvan bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutu,- 2015. cild 5..№1, -s.147-151
8. Azərbaycan Xalq Cümhuriyyətinin sərhəd strategiyası //- Bakı: "Sivilizasiya" Elmi-nəzəri jurnal, -2015.№4.- s.131-136
9. İlham Əliyev və Azərbaycanın sərhəd təhlükəsizliyi siyasəti //-Bakı: Heydər Əliyev irsi və Azərbaycan Respublikasının davamlı inkişafı mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları. - 2015, - s.84-90.
10. Azərbaycanın geosiyasi mövqeyi dəniz sərhədlərininetibarlı mühafizəsini zəruri edir.//-Bakı: Post 2015: Qlobal çağırışlar şəraitində Azərbaycan Respublikasının davamlı inkişafı

mövzusunda elmi-praktiki konfransın materialları.- 2015. - s.311-319
11. Erməni terroru Azərbaycanın milli təhlükəsizliyinə ən böyük təhdid kimi //-Sumqayıt: Ermənilərin soyqırım siyasəti bəşəriyyətə qarşı cinayətdir mövzusunda beynəlxalq elmi konfransın materialları. – 2015. - s.172-174
12. Azərbaycan Respublikasının sərhəd strategiyasının memarı // - Bakı: Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92 və hakimiyyətə qayıdışının 22-ci ildönümünə həsr olunmuş Azərbaycan tarixinin Heydər Əliyev epoxası mövzusunda III Beynəlxalq elmi-praktiki konfransın materialları. - 2015. - s.253-257.
13. Azərbaycanın sərhəd mühafizəsinin inkişafı tarixi 1918-1920-ci illər.//-Bakı: Ümummilli lider Heydər Əliyevin 92-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların İİİ beynəlxalq elmi konfransının materialları. - 2015, -s.1426-1428
14. Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinin təmin olunmasında peşəkar sərhədçi kadrların hazırlanmasının zəruriliyi//-Bakı: ”Milli təhlükəsizlik və hərbi elmlər”. Elmi-praktiki jurnal. -2015. №1(1), - s.228-232
15. Современные угрозы пограничной безопасности Азербайджана.//-Кишинев,”Право и политология” Международный научный журнал, -2016.№33,март,.-стр.66-69
16. Azərbaycanın sərhəd təhlükəsizliyinin təmin olunmasında miqrasiya proseslərinin təsiri//-Bakı: Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 10 illiyinə həsr edilmiş “Fövqəladə hallar və təhlükəsiz həyat” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları.- 2016. - s.88-91
17. Transsərhəd axınları və sərhəd təhlükəsizliyi //-Bakı: ”Dövlət idarəçiliyi”:nəzəriyyə və təcrübə.Elmi-nəzəri və praktiki jurnal.-2017, № 3(59), - s.311-316.
18. Transsərhəd axınlarının idarə olunmasının milli təhlükəsizlik baxımından əhəmiyyəti //-Bakı: ”Milli təhlükəsizlik və hərbi elmlər”.Elmi-praktiki jurnal, -2017. №3(59), -s.115-119

19. İnsan alveri və dövlətin sərhəd təhlükəsizliyi siyasəti //-Bakı: Azərbaycanda miqrasiya siyasəti: nailiyyətlər və inkişaf perspektivləri mövzusunda elmi-praktiki konfransın materialları. -2017.- s.176-179
20. Azərbaycanın sərhəd mühafizə tarixi 1918-1920 //-Sumqayıt: Azərbaycan Xalq Cümhuriyyəti təşəkkülü, fəaliyyəti tarixi əhəmiyyəti. respublika elmi konfransı. -2018.- s.96-100
21. Heydər Əliyev və sərhəd təhlükəsizliyi //-Sumqayıt: Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır. respublika elmi konfransı. - 2018.-s.299-301
22. Azərbaycan Xalq Cümhuriyyəti dövründə sərhəd mühafizəsinin təşkili //-Bakı: Azərbaycan Xalq Cümhuriyyəti - 100.tarixi irs və müasirlik. respublika elmi konfransı. -2020. - s.374-379
23. Azerbaijan- Russia relation in the concept of border security//Пенза:Европейскиенаучныеисследования.Международной научно-практической конференции. - 2020. с 80-83
24. Квопросу о влиянии Нагорного Карабахского конфликтана безопасность государственной границы Азербайджана (1993-2013)//-Москва: “Современная научная мысль”- 2021. №2, с146-150

Dissertasiyanın müdafiəsi 04 fevral 2022-ci il tarixində saat 10$^{00}$-da AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti,115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında (www.tarixinstitutu.az) yerləşdirilmişdir.

Avtoreferat 01 yanvar 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 2022

Kağızın formatı:A5

Həcm:35995

Tiraj:100